

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 iyun 2026-cı il №37 (3039) https://mod.gov.az Qiymətı 30 qəpik

## Prezident İlham Əliyevin sosial media hesablarında Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edilib




*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edilib.*

*AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Əziz övladlar! 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə hər birinizi təbrik edir, hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram”.*

## Birinci vitse-prezident Mehriban Əliyeva Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib




*Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib.*

*AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Yer üzündəki hər bir uşağa möhkəm cansağlığı, sevgi, xoş günlər, qayğısız uşaqlıq və xoşbəxt həyat arzulayıram”.*

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub etdik və kapitulyasiya aktını imzalamağa məcbur etdik



İyunun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Sabahınız xeyir, xanımlar və cənablar.

Mən "Bakı Enerji Həftəsi"nin bütün iştirakçılarını salamlayıram, bu cür böyük tədbirə uğurlar arzu edirəm.

Artıq qeyd edildiyi kimi, Xəzər Neft və Qaz Sərgisi müasir Azərbaycanın enerji inkişafının bünövrəsini qoydu. Vaxt ötdükcə o dəyişdi, daha böyük vüsət aldı və hazırda çoxsaylı tədbirlər və xeyli faydalı mərasimlərlə yadda qalan "Bakı Enerji Həftəsi" adlanır. Haqlı olaraq bildirildi ki, dünyanın ən iri qaz yataqlarına aid "Şahdəniz" müqaviləsi dəqiqliklə 30 il əvvəl, 1996-cı ilin iyununda imzalanıb. Beləliklə, sayı artan ölkələrin enerji təhlükəsizliyinə töhfə verən Azərbaycanın müasir qaz hasilatında yeni səhifə açıldı. Bu tədbirin əhəmiyyəti, həmçinin ABŞ Prezidenti Donald Trampın nəzakətli məktubunda əks olunub.

Bu bir daha göstərir ki, "Bakı Enerji Həftəsi" qlobal enerji səhnəsində həqiqətən aparıcı tədbirlərdən biridir. Mən nəzakətli məktubuna görə Prezident Trampa çox minnətdaram və həmçinin tədbirə məktub göndərmiş Türkiyə Prezidenti Ərdoğana və Birləşmiş Krallığın Baş naziri Starmerə təşəkkürümü bildirirəm.

Enerji məsələsini yenidən normal məcraya qaytardığına görə Prezident Trampa daha bir təşəkkür düşür. Hamımız bilirik ki, uzun illər neft və qaz hasilatı ilə məşğul olan ölkələr və şirkətlərə damğa vurulurdu, bəzən qarayaxma obyektinə çevrilirdilər, planetin dağıdılmasında ittiham olunurdular. Hər hansı əsas olmadan, ictimai rəylə küncə sıxışdırılırdılar.

Prezident Tramp bu trendi dəyişdi və bu, həqiqətən əla hadisə oldu, çünki hamımız bilirik ki, hətta bəzi iri neft şirkətləri dırnaqarası müasir trendə uyğun olmaq xatirinə öz adlarını dəyişirdilər. Lakin reallıq tamamilə fərqlidir. Dünya faydalı qazıntı olmadan yaşaya bilməz. Hamımız daha yaxşı iqlimi, planetin qorunmasını istəyirik. Lakin bu gün biz praqmatik olmalıyıq, enerji təhlükəsizliyi və həmçinin bərpaolunan enerjiyə sərmayə yatırmaqla yanaşı, öz gələcəyimizi planlaşdırmalıyıq. Düşünürəm, irəliyə doğru aparan yol belədir!

Bir sözlə, hesab edirəm ki, hazırda qlobal enerji səhnəsində baş verən hallar ABŞ Prezidentinin çox müdrik və praqmatik siyasəti sayəsində ərsəyə gəlmişdir. Hamımız ona bir daha minnətdarıq.

**(Ardı 2-ci səhifədə)**

## Prezident İlham Əliyev Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması ilə bağlı memoranduma görə Donald Trampa təşəkkür edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azadlığa Dəstək Aktının 907-ci maddəsinin ləğv müddətinin uzadılması haqqında memorandum bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Möhtərəm Prezident Donald Tramp,

Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması barədə memorandumu şəxsi qeydiniz və xoş sözlərinizlə birlikdə mənə xatirə hədiyyəsi olaraq göndərdiyiniz üçün Sizə səmimi təşəkkürümü bildirmək istəyirəm. Bu diqqətəlayiq jesti yüksək qiymətləndirir və ona böyük ehtiram bəsləyirəm".

## Bolqarıstanda kursu uğurla bitirənlərə sertifikatlar təqdim olunub





Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Dəniz Qüvvələri fakültəsinin bir qrup şəxsi heyəti 26-30 may 2026-cı il tarixlərində Bolqarıstanın Varna şəhərində keçirilən "Gəmi idarəetmə və naviqasiya təhlükəsizliyi" kursunda iştirak edib.

Milli Müdafiə Universiteti xəbər verir ki, kurs çərçivəsində iştirakçılar gəminin hərəkət körpüsü simulyatorunda naviqasiya təhlükəsizliyinin təmin edilməsi, gəmi idarəetməsi və taktiki manevrlərin icrası üzrə praktiki tapşırıqları yerinə yetiriblər. Təlimin sonunda zabit və kursantlara kursu uğurla başa vurduqlarını təsdiq edən sertifikatlar təqdim olunub.

## Qəhrəmanlıq salnaməmizi yaddaşlara köçürənlərin bir qərinəlik tarixi

Bir xalqın keçdiyi yolu, qazandığı qələbələri, göstərdiyi igidlik və şücaət nümunələrini yaddaşlarda yaşatmaq üçün müxtəlif vasitələrdən istifadə olunub. Bu baxımdan müasir dövrdə informasiya və təbliğat fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Xüsusilə ordu quruculuğu prosesində hərb tariximizin qəhrəmanlıq səhifələrinin qorunması, Azərbaycan Ordusunun qüdrətinin, döyüş əməliyyatlarında hərbi qulluqçularımızın göstərdiyi misilsiz şücaət nümunələrinin ictimaiyyətə çatdırılması istiqamətində təbliğat ən təsirli və güclü vasitələrdən biridir.

**(Ardı 8-ci səhifədə)**



## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub etdik və kapitulyasiya aktını imzalamağa məcbur etdik

**(Əvvəli 1-ci səhifədə)**



Ölkələr neft və qazın mövcud olmasına görə günahlandırılmalı deyil, çünki neft və qaz digər adi əmtəə kimidir. Hər bir ölkə torpağının təkində və ya dənizinin dibində olanı öz inkişafı üçün istifadə edir. Öz müstəqilliyinin əvvəlində Azərbaycanda məhz belə hal idi. Neft və qaz bizim üçün müstəqil ölkə kimi yaşamağın yeganə yolu oldu. Beləliklə, ölkələr neftin olub-olmaması ilə deyil, gəlirlərdən necə istifadə etdiklərinə görə mühakimə edilməlidir. Diqqət yetirilməlidir ki, öz ölkəsinin inkişafı, xalqının daha yaxşı yaşayış şəraitinin təminatı, yaşıl gündəlik məsələlərinə enerjinin istehsalından əldə edilən vəsaitləri onlar necə sərmayə kimi yatırırlar. Düşünürəm ki, Azərbaycan çox bariz nümunədir. Bütün bunlar göstərir ki, ölkənizi beynəlxalq sərmayələrə açıq edəndə, milli maraqlara əsaslanan müdrik siyasət aparanda siz uğur qazanırsınız.

Hörmətli iştirakçı və təşkilatçı tərəfindən qeyd edildi ki, Azərbaycanın enerji inkişafı 1994-cü ildə başladı. Yeri gəlmişkən, təşkilatçılara da öz dərin təşəkkürümüzü bildiririk. Əgər 1994-cü ilə nəzər salsaq, keçmişdə Azərbaycanın çox ağır vəziyyətdə olduğunu görə bilərik. Ölkə iqtisadi baxımdan tam qarışıq, siyasi baxımdan qeyri-sabit idi. Ərazinin təxminən 20 faizi Ermənistanın işğalı altında idi. Bir milyon qaçqın var idi və həmin vaxt, bu, ola bilsin, adam başına düşən ən yüksək qaçqın sayı idi. Bizim heç bir vəsaitimiz yox idi. Elektrik enerjisini idxal edirdik. Biz hətta təbii qazı idxal edirdik. Yoxsulluq səviyyəsi 50 faizdən artıq idi. İşsizlik geniş yayılmışdı. Müstəqil ölkə kimi yaşamaq və irəliyə getməkdə bizim üçün yeganə yol sahib olduğumuz təbii sərvətlərdən istifadə idi. Azərbaycan ilk ölkə idi ki, Xəzərin ehtiyatlarını beynəlxalq neft şirkətlərinə açıq etdi. Həmin vaxtdan etibarən çox hadisələr oldu.

Əgər bu gün biz Azərbaycana nəzər salsaq həmin transformasiyaya gəldikdə, bu sərvətlərdən necə istifadə etdiyimizə, onun yenidən sosial infrastruktura, təhsilə, səhiyyəyə, enerji sahəsinin inkişafına yatırdığımıza əsasən deyə bilərik ki, ölkələr necə inkişaf etməlidir və bu yol 1990-cı illərin əvvəlində üzləşdiyimiz eyni problemlərdən müəyyən dərəcədə əziyyət çəkən ölkələr üçün örnək olmalıdır.

Bu gün Azərbaycanın iqtisadi fəaliyyəti çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır. Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var. Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də təqribən eyni rəqəm səviyyəsindədir. Biz xarici borcumuzu əhəmiyyətli dərəcədə azalda bildik. Başlanğıcda biz borc götürmək məcburiyyətində idik, lakin sonra strategiyamız borc götürməyi dayandırmaq və borcları ödəmək oldu ki, biz istənilən beynəlxalq maliyyə institutundan asılı olmayaq. Bu gün bizim xarici borcumuz dünyada ən aşağı xarici borclardandır və o, təqribən ümumi daxili məhsulun 6 faizindən çoxdur.

Biz ehtiyatlarımızı Dövlət Neft Fondu və Mərkəzi Bankda topladıq. Beləliklə, ehtiyatlarımız xarici borcu 18 dəfədən çox üstələyir. Bütün bunlar birinci növbədə bizim təbii sərvətlərimizdən düzgün istifadə etdiyimizə görə baş verdi. Biz həm investorlara, həm də ev sahibi ölkəsinə qazanc gətirən vəziyyəti yaratdıq. Biz milli maraqlar üzərində dayanan çox praqmatik siyasət həyata keçirtdik və işimizə müdaxilə etmək, bizə pis məsləhət vermək istəyənlərə qulaq asmadıq. Biz hər bir işi strategiyamız əsasında etdik. Bütün taktiki gedişlərimiz həmin strategiyaya əsaslanırdı. Biz demək olar ki, 30 il ərzində işğal altında qalmış torpaqlarımızı azad edən güclü ordu qurduq. Biz cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub etdik və kapitulyasiya aktını imzalamağa məcbur etdik. Əlbəttə ki, müharibədə qələbə dedikdə, sadəcə, pul və hətta silahlar nəzərdə tutulmur. Söhbət döyüş ruhundan gedir. Lakin gəlin etiraf edək, ordunu qurmaq üçün pulumuz olmasaydı, yəqin ki, bu gün hələ də torpaqlarımız işğal altında olardı. Beləliklə, Azərbaycanın inkişafı, - istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, - bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər.

Enerji təhlükəsizliyi. Biz hamımız ondan danışırıq, xüsusilə indi Yaxın Şərqdəki böhran bir çox ölkələrin, istehsalçı və istehlakçıların enerji təhlükəsizliyinə ciddi zərbə vurduğu vaxtda. Biz bunun üzərində uzun illər çalışmışıq. Biz böyük sərmayələr yatırmışıq və Xəzər dənizini Aralıq dənizi ilə ilk dəfə birləşdirən Bakı-Tbilisi-Ceyhan, Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəmərləri kimi irimiqyaslı infrastruktur layihələrinə başlamışıq. Cənubi Qafqaz qaz kəməri ilə günümüzün ən iddialı enerji infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizini təşkil edən TANAP və TAP, Trans-Anadolu və Trans-Adriatik qaz kəmərləri 3500 kilometr uzunluğunda birləşmiş boru xətti sistemindən ibarətdir. Layihənin bir hissəsi yüksək dağlıq ərazidən keçir, bir hissəsi isə dənizin dibi ilə gedir. Bu gün bu layihə sayı artmaqda olan ölkələrin enerji təhlükəsizliyini təmin edir. Biz bu layihəyə başladıq və bizimlə birlikdə olan tərəfdaş ölkələrə və şirkətlərə minnətdarıq.

Bu gün Avropa enerji bazarının Cənub Qaz Dəhlizi olmadan necə olacağını təsəvvür etmək çətindir. Qeyd etdiyim kimi, biz sayı artmaqda olan ölkələri qazla təchiz edirik. Keçən il burada - "Bakı Enerji Həftəsi"ndə mən auditoriyaya məlumat verdim ki, Azərbaycan qazını 12 ölkə alır. Bu gün onların sayı 16-dır və onlardan 10-u Avropa İttifaqına üzv olan ölkələrdir. Bu ölkələrin sayı, əlbəttə ki, artacaqdır. Boru xətti ilə qazın müxtəlif ölkələrə nəql edilməsi, ərazi və coğrafiya kimi parametrlərə baxsanız görərsiniz ki, biz dünyada birinciyik. Biz qaz təchizatımızı artıracağıq. Yeri gəlmişkən, bu gün bizdə bir neçə sənədin imzalanma mərasimi olacaq. Mən xüsusilə "Azəri-Çıraq-Günəşli" dərin qaz layihəsini vurğulamaq istəyirəm, biz bunu belə adlandırırıq. Bu layihə üzrə Abşeron yatağı və bir çox digər yataqlarla yanaşı, əlavə qaz hasil ediləcəkdir. Beləliklə, bizim qlobal enerji təhlükəsizliyinə töhfəmiz, əlbəttə ki, artacaqdır. Düzgün enerji siyasəti bizə Azərbaycandan xaricə sərmayə yatırmağa imkan verdi. Otuz il bundan əvvəl biz investorları cəlb edirdik. İndi isə öz investisiyalarımızla xaricə çıxırıq. Bu gün Dövlət Neft Şirkəti - SOCAR Yaxın Şərq, Afrika və Mərkəzi Asiyaya investisiya yatırır və bu coğrafiya daha da genişlənəcək.

Biz Xəzər dənizinin şərq sahillərində yerləşən dost və tərəfdaşlarımız üçün mühüm tranzit imkanları təqdim edirik. Mərkəzi Asiyadan hasil olunan neft Azərbaycan ərazisindən keçərək beynəlxalq bazarlara çıxarılır. Ümid edirəm ki, yaxın gələcəkdə təbii qazla bağlı da eyni sözləri deyə biləcəyik.

Biz emal sənayesində yüksək dərəcədə şaxələndirilmiş imkanlar yaratmışıq. Bu gün SOCAR-ın neft emalı gücü 30 milyon tondan artıqdır. Bu yaxınlarda "Italiana Petroli"nin satın alınması nəticəsində Aralıq dənizi hövzəsindəki emal gücümüz 13 milyon tondan 23 milyon tona yüksəlmişdir. Beləliklə, biz yalnız neft və qaz deyil, həm də neft məhsullarını təchiz edirik. Bununla yanaşı, elektrik enerjisi, neft-kimya məhsulları və bərpaolunan enerji sahəsində də ixrac imkanlarımız mövcuddur. Bu istiqamət fəaliyyətimizin əsas prioritetlərindən biridir. Artıq qeyd etdiyim kimi, ölkələr sahib olduqları neft ehtiyatlarına əsasən deyil, həmin resurslardan əldə olunan gəlirləri necə idarə etdiklərinə və bərpaolunan enerjiyə necə sərmayə yatırdıqlarına görə qiymətləndirilməlidirlər.

Mövcud qaz ehtiyatlarımız ən azı növbəti yüz il ərzində həm ölkəmizin, həm də tərəfdaşlarımızın tələbatını ödəməyə kifayət edəcəkdir. Əslində, bu ehtiyatlar nəzərə alındıqda, elektrik enerjisinin istehsalı üçün əlavə mənbələrə ehtiyacımız olmazdı. Lakin məsuliyyətimiz bizdən bərpaolunan enerji mənbələrinə sərmayə yatırmağı tələb edir. Biz bunu edirik. Tərəfdaşlarımızla birlikdə investorlar üçün olduqca əlverişli şərait yaratmışıq. Bu şərait mahiyyət etibarilə ötən əsrin 90-cı illərinin əvvəllərində neft şirkətləri üçün yaradılmış imkanlara bənzəyir. Bu gün eyni əməkdaşlıq ruhu və investisiyaya açıq yanaşma bərpaolunan enerji sektorunda fəaliyyət göstərən şirkətlərə də tətbiq olunur.

Artıq bir sıra layihələrimiz istismar mərhələsindədir. Gələn ilin sonunadək Günəş və külək enerjisi üzrə ümumi gücümüz 2 giqavata çatacaq. 2032-ci ilin sonunadək isə bu göstərici 8 giqavat təşkil edəcək. Əgər fəal şəkildə inkişaf etdirdiyimiz hidroenerji potensialını da nəzərə alsaq, xüsusilə Qarabağda və Şərqi Zəngəzurda artıq 300 meqavatdan çox güc istifadəyə verilmişdir. Bu da ölkəmiz üçün əlavə enerji potensialı yaradır. Həmin potensial neft və qaz ixracımızı tamamlayan bir mənbəyə çevriləcəkdir.

Bu gün biz tərəfdaşlarımızla enerji kabeli layihələri üzrə sıx əməkdaşlıq edirik. Texniki-iqtisadi əsaslandırma mərhələsinin artıq yekunlaşmaq üzrə olduğu "Qara dəniz Enerji Kabeli" layihəsi Azərbaycanı Gürcüstan, Qara dəniz vasitəsilə Rumıniya, Macarıstan və digər ölkələrlə birləşdirəcək. Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan marşrutu üzrə quruda çəkiləcək elektrik kabeli layihəsi də hazırda icra mərhələsindədir. Bu yaxınlarda həmin ölkələrin hökumət nümayəndələrinin çox səmərəli görüşü keçirilmişdir.

Biz, həmçinin Mərkəzi Asiyadakı tərəfdaşlarımızla birlikdə Xəzərin şərq sahillərindən Azərbaycana qədər uzanacaq yaşıl enerji kabeli layihəsi üzərində işləyirik.

Beləliklə, söhbət geniş coğrafiyanı əhatə edən böyük əməkdaşlıq məkanından gedir və bu bağlılıq yalnız nəqliyyat sahəsi ilə məhdudlaşmır. Halbuki, nəqliyyat sahəsində əldə etdiyimiz nailiyyətlərlə də haqlı olaraq fəxr edə bilərik. Dəmir yolu və avtomobil yolu infrastrukturuna qoyduğumuz sərmayələr sayəsində yeni nəqliyyat dəhlizləri açmışıq və qitələri bir-biri ilə əlaqələndirmişik.

Şərq-Qərb dəhlizi uğurla fəaliyyət göstərir. Şübhəsiz ki, Şərq-Qərb dəhlizinin yeni qolu olacaq Zəngəzur dəhlizi də inşa ediləcəkdir. Bu, ötən il avqustun 8-də Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti, Ermənistanın Baş naziri və mənim tərəfimdən imzalanmış sənədə əsaslanır. Bütün bunlar hamımız üçün böyük sərvətdir.

Xüsusilə vurğulamaq istədiyim digər bir məsələ isə ondan ibarətdir ki, bütün bu nailiyyətlər yüksəksəviyyəli diplomatik fəaliyyət nəticəsində mümkün olmuşdur. Çünki Azərbaycan dənizə birbaşa çıxışı olmayan ölkədir. Bizim dünya okeanlarına çıxışımız yoxdur. Bu səbəbdən enerji resurslarımızı ixrac etmək üçün digər ölkələrin ərazisindən keçmək zərurəti yaranır. Buna nail olmaq üçün isə yalnız qonşularınızla deyil, qonşularınızın qonşuları ilə də yaxşı münasibətlər qurmalısınız. Biz buna nail olmuşuq.

Qeyd etdiyim kimi, bu gün Cənub Qaz Dəhlizi və onun genişləndirilmiş marşrutları vasitəsilə Azərbaycanın qazı 16 ölkəyə çatdırılır. Bu ölkələrin hər biri ilə danışıqlar aparmışıq, sazişlər imzalamışıq, fikir ayrılıqlarını aradan qaldırmışıq və imzalanma mərasimləri təşkil etmişik. Nəticədə geniş mənada regional əməkdaşlığın çoxşaxəli və əhatəli formatı meydana gəlmişdir. Bu prosesdə aparıcı qüvvə yenə də Azərbaycan olmuşdur. Bu, bizim resurslarımız idi. Bu, bizim təşəbbüslərimiz idi. Əsas etibarilə, məhz bizim investisiyalarımız bu geniş əməkdaşlıq formatının yaranmasını təmin etmişdir.

Əminəm ki, ənənəvi olaraq "Bakı Enerji Həftəsi" bu dəfə də uğurlu nəticələr verəcəkdir. Bir neçə dəqiqədən sonra bu nəticələrin bir qisminin şahidi olacağıq. Lakin əminəm ki, aparılan müzakirələr, təmaslar, yeni ideyalar və nəticəyönümlü planlar hamımız üçün faydalı olacaqdır. Bir daha bizimlə birlikdə olduğunuza görə sizə təşəkkür edir, "Bakı Enerji Həftəsi"nə uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Sonra Amerika Birləşmiş Ştatlarının İqtisadiyyat, Enerji və Biznes məsələləri üzrə Büronun katibinin köməkçisi Kaleb Orr ABŞ Prezidenti Donald Trampın, Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar Prezident Rəcəb Tayyib Ərdoğanın, Böyük Britaniyanın Şərqi Avropa və Mərkəzi Asiya üzrə ticarət komissarı Devid Rid çıxış edərək Baş nazir Kir Starmerin "Bakı Enerji Həftəsi"nə məktublarını oxuyublar.

* * *

Tədbir digər çıxışlarla davam edib.

Sonra "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan ilk sərbəst təbii qaz hasilatına başlanması mərasimi keçirilib.

Daha sonra bir sıra sənədlər imzalanıb.

Prezident İlham Əliyev sərginin xatirə kitabını imzalayıb.

Dövlətimizin başçısı sərgilərlə tanış olub.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycanın müdafiə naziri Gürcüstana səfər edib

*Gürcüstanın Tbilisi şəhərində səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Baş naziri cənab İrakli Kobaxidze ilə görüşüb.*





Müdafiə Nazirliyi xəbər verir ki, Gürcüstanın baş nazirinin müavini, müdafiə naziri İrakli Çikovaninin də iştirak etdiyi görüşdə iki ölkə arasında əməkdaşlığın hazırkı vəziyyəti, regional və beynəlxalq gündəmdə duran məsələlər müzakirə olunub.

Tərəflər, həmçinin regionda sülhün və sabitliyin qorunmasının əhəmiyyətini diqqətə çatdırıb, Gürcüstan və Azərbaycan arasında müdafiə sahəsində strateji tərəfdaşlığın və əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıblar.







* * *

Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin baş nazirinin müavini, müdafiə naziri İrakli Çikovani ilə görüşüb.

Protokola uyğun olaraq, təntənəli qarşılanma mərasimində müdafiə nazirləri fəxri qarovul dəstəsinin önündən keçiblər. Hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

General-polkovnik Z.Həsənov bir çox sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələrimizin davamlı olaraq inkişaf etdiyini qeyd edib.

Azərbaycan Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyevin də iştirak etdiyi görüşdə tərəflər hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlıqların yeni perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıblar.







Səfər çərçivəsində nümayəndə heyəti Tbilisi şəhərində yerləşən Qəhrəmanlar Memorialını və Heydər Əliyev adına mədəniyyət və istirahət parkında xalqımızın Ümummilli Liderinin abidəsini ziyarət edib, abidələrin önünə əklillər qoyub.

* * *

Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov bir sıra hərbi obyektlərdə olub.

Səfər proqramına uyğun olaraq, müdafiə naziri Gürcüstanın baş nazirinin müavini, müdafiə naziri İrakli Çikovani və Müdafiə Qüvvələri komandanı general-leytenant Giorgi Matiaşvili ilə birlikdə mayor Gela Çedia adına Xüsusi Əməliyyatlar Komandanlığının Muxrovanideki bazasında olub.

Hərbi baza barədə ətraflı məlumat verildikdən sonra Azərbaycan nümayəndə heyəti burada yaradılan şəraitlə tanış olub və silahlara baxış keçirib.







# Uşaqların xoşbəxtliyi cəmiyyətin xoşbəxtliyidir

Uşaqlar həyatın ən saf, ən pak, ən səmimi və ən dəyərli varlıqlarıdır. Onların gülüşü dünyaya sevinc, baxışları isə ümid gətirir. Hər bir uşaq öz arzuları, düşüncələri və istedadı ilə gələcəyin qurucusu və memarıdır. Buna görə də uşaqların sağlam, xoşbəxt və qayğısız böyüməsi cəmiyyətin ən vacib vəzifələrindən hesab olunur.

Uşaqlıq insan həyatının ən gözəl dövrüdür. Bu dövrdə əldə edilən biliklər, mənəvi dəyərlər və həyat təcrübələri gələcək şəxsiyyətin formalaşmasında mühüm rol oynayır.

Hər bir uşağın təhsil almaq, istirahət etmək, oyun oynamaq, öz fikrini sərbəst ifadə etmək və təhlükəsiz mühitdə yaşamaq hüququ var. Bu hüquqlar qanunvericilikdə də öz əksini tapır. Bu hüquqların qorunması onların sağlam gələcəyinin təmin edilməsinin əsas şərtidir.

Bu günün uşaqları sabahın alimləri, müəllimləri, həkimləri, mühəndisləri, jurnalistləri, hərbi qulluqçuları, polisləri və dövlət xadimləridir. Onların bilikli, vətənpərvər və məsuliyyətli vətəndaş kimi yetişmələri üçün hər birimiz öz töhfəmizi verməliyik. Çünki uşaqların xoşbəxtliyi cəmiyyətin xoşbəxtliyidir.

Təqvimdə də uşaqlar günü xüsusi qeyd edilir. Hər il iyunun 1-i dünyada Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşüb. Bu günün keçirilməsi barədə qərar 1925-ci ildə Cenevrədə Ümumdünya Konfransında qəbul edilib. Sözügedən tarix uşaqların rifahına həsr olunub. Uşaqların Beynəlxalq Müdafiəsi Günü rəsmi olaraq 1949-cu ilin noyabrında Parisdə Beynəlxalq Demokratik Qadınlar Federasiyası Konqresinin qətnaməsi ilə təsis olunub və ilk dəfə olaraq 1950-ci ildə qeyd edilib.

Uşaqların Beynəlxalq Müdafiəsi Günü yalnız uşaqlar üçün şən bir gün deyil. Bu gün həm də cəmiyyətə uşaqların hüquqlarını qorumağın vacibliyini xatırladır ki, bütün uşaqlar xoşbəxt böyüsün, təhsil alsın, sevdikləri işlə məşğul olsun və gələcəkdə ölkələrinin layiqli vətəndaşları olsunlar. Bu əlamətdar gün uşaqların hüquqlarının qorunmasına, onların sağlam, təhlükəsiz və xoşbəxt mühitdə böyümələrinin vacibliyinə diqqət çəkmək məqsədi daşıyır.

Müasir dünyada uşaqların müdafiəsi sahəsində mühüm addımlar atılır. Azərbaycan da uşaqların hüquqlarının qorunmasına xüsusi diqqət yetirən ölkələr sırasındadır. Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı uşaqların sosial müdafiəsinə, sağlam və firavan böyüməsinə, eləcə də onların inkişaflarına yönələn tədbirlərin də ildən-ilə güclənməsinə imkan yaradıb. Respublikamızda uşaqların təhsil alması, sağlamlığının qorunması və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində müxtəlif dövlət proqramları həyata keçirilir. Məktəblərdə, uşaq bağçalarında və digər müəssisələrdə uşaqların hərtərəfli inkişafı üçün əlverişli şərait yaradılır.

Ümummilli Lider Heydər Əliyevin "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi necə tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı da bundan asılı olacaqdır" fikri Azərbaycanın 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə münasibətinin mahiyyətini aydın şəkildə ifadə edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vurğulayır: "Uşaqlarımızın hərtərəfli inkişaf etmiş şəxsiyyət və ölkəmizin layiqli vətəndaşı kimi formalaşması dövlət uşaq siyasətinin əsas istiqamətlərindən biridir". Bu siyasət gələcək çağırışçıların, əsgərlərin və vətəndaşların formalaşmasına xidmət edir. Bu gün Vətən hüdudlarında xidmət edən əsgərlər də vaxtilə həmin siyasətin əhatə etdiyi uşaqlar olublar. Dövlət qayğısı və vətənpərvərlik ruhunda tərbiyə nəticəsində formalaşan ordu humanist dəyərlərə söykənən bir orduya çevrilir. Azərbaycan Ordusu da məhz belə bir ordudur.




Azərbaycan Ordusu dövlətin ərazi bütövlüyünü qoruyur və Ali Baş Komandanın əmri ilə torpaqlarımızın işğaldan azad olunması missiyasını yerinə yetirir. Bu məsuliyyətli və şərəfli vəzifəni dövlətə və dövlətçiliyə sədaqətlə icra edən ordu əhalinin, o cümlədən uşaqların təhlükəsizliyinin təminatçısıdır. Bu baxımdan 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü həm də Azərbaycan Ordusunun humanist fəaliyyətinə ehtiramın ifadəsi kimi dəyərləndirilə bilər.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və həmin iddialara verilən dəstək ölkədə milli-azadlıq hərəkatının genişlənməsinə səbəb olmuşdu. 1988-ci il fevralın 20-də Xankəndidə yalnız erməni deputatlarının iştirakı ilə keçirilən qanunsuz iclasda Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə müraciət qəbul edildi. Fevralın 22-də minlərlə silahsız azərbaycanlı Ağdamdan Əsgərana doğru yürüş etdi. Ermənilər dinc nümayiş iştirakçılarına atəş açdılar və nəticədə iki uşaq - Əli və Bəxtiyar həlak oldu.

Sonrakı dövrdə Xocalı mühasirəyə alındı. 1992-ci il fevralın 26-da Xankəndidə yerləşən 366-cı alayın iştirakı ilə Xocalıda kütləvi qırğın törədildi. Bu faciə zamanı 63 uşaq xüsusi amansızlıqla qətlə yetirildi.

Biz uşaqların talelərini hər dövrün filmlərində də rahatlıqla görə bilirik. Məsələn: Azərbaycan kinosunun dəyərli nümunələrindən biri olan "Bizim Cəbiş müəllim" filmi müharibə illərində insanların həyatını, çətinliklərini və mənəvi dəyərlərini əks etdirir. Filmdə diqqəti cəlb edən əsas məqamlardan biri də uşaqların həyatının və düşüncə tərzinin təsviridir. Müharibə dövrünün ağır şəraiti uşaqların gündəlik həyatına da təsir göstərir. Onlar qıtlıq, maddi çətinliklər və narahatlıq içərisində böyüsələr də, uşaqlara məxsus saflıqlarını və həyat eşqlərini itirmirlər. Film göstərir ki, ən çətin zamanlarda belə uşaqlar ümid və sevinc mənbəyi olaraq qalırlar.

Əsərdə Cəbiş müəllim obrazı uşaqların tərbiyəsində mühüm rol oynayır. O, məktəbdə dərs deyən müəllim olmaqdan daha çox uşaqlara düzgün yol göstərən, onlarda dürüstlük, zəhmətsevərlik və Vətənə bağlılıq hisslərini formalaşdıran bir şəxsiyyətdir. Uşaqlar onun davranışlarından nümunə götürür, həyatı daha yaxşı anlamağa çalışırlar. Filmdə uşaqların dostluq və həmrəylik münasibətləri də xüsusi yer tutur. Onlar qarşılaşdıqları çətinliklərə birlikdə sinə gərir, bir-birilərinə dəstək olurlar. Bu xüsusiyyətlər gələcək nəslin mənəvi cəhətdən sağlam formalaşmasının vacibliyini göstərir. Nəticə etibarilə, "Bizim Cəbiş müəllim" filmi uşaqların gözü ilə müharibə dövrünün reallıqlarını əks etdirən, eyni zamanda, müəllim nüfuzunun və düzgün tərbiyənin əhəmiyyətini vurğulayan qiymətli ekran əsəridir. Film tamaşaçıya çatdırır ki, cəmiyyətin gələcəyi məhz uşaqların necə böyüməsindən və hansı dəyərlərlə tərbiyə olunmasından asılıdır.

Bu nümunələrdən biri də "Sən ey uşaqlıq" filmidir. Azərbaycan kinosunun maraqlı nümunələrindən olan bu film uşaqların həyatını, duyğularını və mənəvi inkişafını əks etdirən təsirli ekran əsərlərindən biridir. Film uşaqlıq dövrünün saf və qayğısız görünən, lakin, eyni zamanda, mürəkkəb hisslərlə zəngin olan dünyasını tamaşaçıya çatdırır. Filmdə uşaqların həyata baxışı əsas mövzulardan biridir. Onlar böyüklərin dünyasında baş verən hadisələri öz düşüncələri və hissləri ilə dərk etməyə çalışırlar. Uşaqların hadisələrə səmimi münasibəti, xəyal gücü və maraq hissi filmin emosional təsirini artırır. Bu baxımdan film uşaqlığın sadəcə bir yaş dövründən ibarət olduğu deyil, insan xarakterinin formalaşdığı mühüm mərhələ olduğunu göstərir. Uşaqlar arasındakı qarşılıqlı hörmət, sədaqət və yardımlaşma onların mənəvi inkişafına təsir edən əsas amillər kimi təqdim olunur. Dostluq vasitəsilə qəhrəmanlar həm sevincləri, həm də çətinlikləri birlikdə yaşayır və həyat təcrübəsi qazanırlar. Filmdə ailə və tərbiyə məsələləri də ön plana çıxır. Uşaqların davranışları onların ailədə və cəmiyyətdə aldıqları tərbiyənin nəticəsi kimi göstərilir. Valideynlərin və böyüklərin münasibəti uşaqların xarakterinin formalaşmasına birbaşa təsir edir. Bu səbəbdən film ailənin uşağın həyatındakı rolunu vurğulayır. "Sən ey uşaqlıq" filmi, həmçinin uşaqlığın keçici olduğunu xatırladır. Rejissor uşaqlıq xatirələrinin insan həyatında silinməz iz qoyduğunu göstərərək tamaşaçını keçmişə nəzər salmağa sövq edir. Film uşaqlıq dövrünün saflığını, səmimiyyətini və mənəvi dəyərlərini qorumağın vacibliyini ön plana çəkir. Nəticə olaraq, "Sən ey uşaqlıq" filmi, uşaqların hiss və düşüncələrini, dostluğun və ailənin əhəmiyyətini, eləcə də uşaqlığın insan həyatındakı dərin izlərini əks etdirən mənalı ekran əsəridir. Film tamaşaçılara uşaqlığın ən qiymətli həyat mərhələlərindən biri olduğunu bir daha xatırladır.

Azərbaycan kinosunun ən təsirli və vətənpərvərlik mövzusunda çəkilmiş filmlərindən biri olan "Biz qayıdacağıq" filmindəki məktəbli Zakirin həyat yolu, yaxud "Ağ atlı oğlan" əsərində Muradın mövqeyi müharibənin uşaqların taleyinə necə təsir göstərdiyini nümayiş etdirir. Bu obrazlar göstərir ki, Vətən sevgisi və torpaqların azadlığı ideyası bəzən uşaqları yaşlarından daha tez böyüdür.

1993-cü ilin yayında Zəngilan rayonunda əhalinin köçürülməsi ilə bağlı təxribat xarakterli cəhdlər olmuşdu. Ordunun və ictimaiyyətin müdaxiləsi nəticəsində bunun qarşısı alındı. Həmin günlərdə Qıraq Müşlan kəndində yaşayan 10-12 yaşlı Əfsanənin dedikləri müharibə şəraitində böyüyən uşaqların düşüncələrinin nə qədər yetkin olduğunu göstərirdi. O, doğma yurdunu tərk etməyin mənəvi ağrılarını və nəticələrini böyük insan təfəkkürü ilə ifadə edirdi.

Müharibənin ən ağır və günahsız qurbanları uşaqlardır. Onlar evlərini, ailələrini, məktəblərini və bəzən də həyatlarını itirirlər. Uşaqların oynamaq, öyrənmək və arzular qurmaq üçün keçirməli olduqları illər qorxu və ağrı ilə əvəz olunur.

Hər bir müharibə yalnız yaşayış məskənlərini deyil, həm də uşaqların gələcəyini dağıdır. Bu səbəbdən sülhün qorunması, uşaqların təhlükəsizliyinin təmin edilməsi və onların hüquqlarının müdafiəsi hər bir cəmiyyətin əsas vəzifələrindən biridir.

Ermənistanın Azərbaycana qarşı apardığı müharibə işğal altındakı torpaqlar azad edilənədək davam edən bir proses kimi qiymətləndirilirdi. Atəşkəs dövründə də təxribatlar davam edir, bəzən mülki insanlar, o cümlədən uşaqlar hədəfə çevrilirdi.

2017-ci il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndində 16 aylıq Zəhra Quliyeva erməni silahlı qüvvələrinin atdığı mərmi nəticəsində həyatını itirdi. Bu hadisə də beynəlxalq ictimaiyyət tərəfindən lazımi səviyyədə qiymətləndirilmədi.

Müharibələrin və münaqişələrin ən ağır nəticələrini uşaqlar yaşayırlar. Buna görə də uşaqların müdafiəsi yalnız ayrı-ayrı dövlətlərin deyil, bütün bəşəriyyətin mənəvi borcu olmalıdır. Dünyanın müxtəlif yerlərində anaların fəryadına biganə qalmamaq, uşaqların təhlükəsizliyini qorumağı həyat fəlsəfəsinə çevirmək insanlığın əsas vəzifələrindən biridir.

Azərbaycan əsgərinin xidmətinin mahiyyəti də bundan ibarətdir: torpaqları azad etmək, dövlətin təhlükəsizliyini təmin etmək və həm Azərbaycanın, həm də bütün dünyanın uşaqlarının müdafiəsinə xidmət etmək.

Bu gün müharibələrdə həyatını itirmiş bütün uşaqların xatirəsini ehtiramla yad edir, dünyadakı bütün uşaqlara sülh, sevgi və xoşbəxt gələcək arzulayırıq. Gəlin uşaqların arzularına hörmətlə yanaşaq, onların hüquqlarını qoruyaq və hər zaman sevərək yanlarında olaq. Çünki uşaqlar bizim gələcəyimiz, ümidimiz və ən böyük sərvətimizdirlər.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

Dünyanın təqvimində elə günlər var ki, onlar sadəcə rəqəmlərdən ibarət deyil, bəşəriyyətin vicdan hesabatıdır. İyunun ilk gününə təsadüf edən bu xüsusi tarix kimi. Çoxları bu günü sadəcə təqvimin bayram bəzəyi, uşaqların şən sədalarının ucaldığı bir gün kimi rəmzləşdirir.

Azərbaycanın müstəqillik tarixinə nəzər salanda bəzi həqiqətlər daha aydın görünür. Dövlətin uşağa münasibəti onun gələcəyə atdığı imzanın dərinliyini göstərir. Ölkəmizin hələ ötən əsrin doxsanıncı illərinin əvvəllərində, müharibənin və çətinliklərin tüğyan etdiyi bir vaxtda ilk imza atdığı beynəlxalq sənədlərin BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyası olması təsadüfi deyildi. Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan bu xətt, sadəcə hüquqi sənədlərin qəbulu deyil, bir millətin genofondunu qorumaq strategiyası idi. 2009-cu ilin ölkədə "Uşaq İli" elan olunması ilə genişlənən o rəsmi üfüq, bu gün Heydər Əliyev Fondunun və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyətində tamamilə fərqli bir səmimiyyət mərhələsinə qədəm qoyub.

Bu qayğı rəsmi hesabatların rəqəmlərində deyil, internat evlərində boynu bükük qalan bir uşağın təbəssümündə, ən əsası isə bizə Vətən əmanəti olan şəhid və sağlamlığını itirən müharibə iştirakçılarının övladlarının fəxarət dolu baxışlarında yaşayır. İllərin torpaq həsrətinə son qoymuş, Zəfər qazanmış bir xalqın övladları kimi, bu gün onlar dünənin köçkünlük ağrıları ilə deyil, doğma yurdlarımızın dirçəliş işığında, başıuca və məğrur böyüyürlər. Onlar təkcə öz ailələrinin deyil, bütün Azərbaycanın baş tacı, qürur mənbəyidir.

Lakin dövlətin qurduğu ən mükəmməl qanunlar belə, bir uşağın qəlbindəki ilk cığırı aça bilməz. Çünki insanlığın ən qədim və hələ də tam cavabı tapılmayan sualı rəsmi kabinetlərdə deyil, ailə ocağında pıçıldanır: Övladlarımızı necə tərbiyə edək? Uşaqları necə böyüdək ki, cəmiyyət üçün xeyirli olsunlar? Necə edək ki, uşaqlarımız böyüyəndə onlardan ötrü xəcalət çəkməyək, onlar bizə başıucalıq və şərəf gətirsinlər?

**(Ardı 8-ci səhifədə)**

## Ordu və cəmiyyət

# "Xalq ilə ordunun birliyi dövlətin qüdrətinin əsasını təşkil edir"



"Xalq ilə ordunun birliyi dövlətin qüdrətinin əsasını təşkil edir". Ümummilli Lider Heydər Əliyevin söylədiyi bu fikir Azərbaycanda ordu quruculuğunun təməl fəlsəfəsidir. Müasir tariximiz sübut etdi ki, xalqın öz ordusuna inamı və arxa durması tarixi zəfərlərin ən böyük təminatçısıdır.

Müasir dünyada ordu sadəcə bir dövlətin sərhədlərini qoruyan hərbi güc deyil, həm də cəmiyyətin mənəvi, sosial və mədəni sütunlarından biridir. Ordu və cəmiyyətin inteqrasiyası dövlətin daxili sabitliyinin və xalqın vətənpərvərlik ruhunun ən böyük təminatıdır. Bu qarşılıqlı əlaqə, hərbi hissələrdə keçirilən mədəni tədbirlər, gələcəyin zabitləri olan kursantların cəmiyyətdəki rolu və valideynlərin hərbi mühitə cəlb olunması kimi vacib amillərlə formalaşır.

Ordu və cəmiyyət bir-birindən ayrı mütaliə edilə bilməyən, vahid bir orqanizmin iki əsas hissəsidir. Tarix sübut edib ki, cəmiyyətin mənəvi dəstəyi olmadan ən güclü silahlarla silahlanmış ordu belə qələbə qazana bilməz. Eyni zamanda, güclü və nizamlı ordusu olmayan bir cəmiyyət hər an öz azadlığını və suverenliyini itirmək təhlükəsi ilə üz-üzədir.

Hərbi xidmət təkcə fiziki hazırlıq və silahla rəftar etmək bacarığı deyil, o, həm də yüksək mənəvi-psixoloji dözümlülük tələb edir. Müdafiə Nazirliyinin xətti ilə tanınmış mədəniyyət xadimlərinin, yazıçıların və sənətkarların ön xətdə və arxa cəbhədə yerləşən hərbi hissələrdə əsgərlərlə görüşləri mütəmadi xarakter daşıyır. Mədəni-kütləvi tədbirlər əsgərlərin döyüş ruhunun yüksəldilməsində əvəzsiz rol oynayır. Təşkil olunan konsert proqramları və teatr tamaşaları şəxsi heyətin asudə vaxtını səmərəli təşkil edir, onları gündəlik xidməti gərginlikdən uzaqlaşdırır. Dövlət bayramları, tarixi qələbələr və anım günlərində keçirilən tədbirlər şəxsi heyətə milli kimliyimizi, qəhrəmanlıq tariximizi xatırladır.

Hərbi hissələrdə fəaliyyət göstərən kitabxanalar və əsgərlər arasında təşkil olunan intellektual yarışlar, müxtəlif viktorinalar onların dünyagörüşünün genişlənməsinə və analitik düşüncəsinin inkişafına kömək edir.

Kursantlar cəmiyyət içərisində (ictimai fəaliyyətlərdə, küçədə, kütləvi tədbirlərdə) öz nizam-intizamı, səliqəli forması və davranışı ilə gənclərə nümunə olurlar. Tez-tez müxtəlif sosial layihələrdə, ağacəkmə kampaniyalarında, qanvermə aksiyalarında və könüllülük hərəkatlarında fəal iştirak edirlər. Bu, onlara cəmiyyətlə sıx bağlar qurmağa kömək edir. Kursantların məktəblilərlə keçirdiyi görüşlər, hərbi-idman oyunlarında iştirakı yeniyetmələrdə hərbi peşəyə qarşı böyük maraq və sevgi yaradır.

Kursantların mədəni tədbirlərə, teatra getməsi onların daxili dünyasını, estetik zövqünü formalaşdırır, bu sadəcə asudə vaxtın səmərəli keçirilməsi deyil, həm də mənəvi-psixoloji hazırlığın tərkib hissəsidir. Xüsusilə tarixi dramlar, vətənpərvərlik mövzusunda olan tamaşalar, filmlər gələcəyin zabitlərinə qəhrəmanlıq irsini daha dərindən dərk etməyə imkan verir. Gənc kursant insan psixologiyasını anlamağı, hadisələrə empatiya ilə yanaşmağı öyrənir ki, bu da gələcəkdə rəhbərlik edəcəyi şəxsi heyətlə düzgün ünsiyyət qurmaq üçün vacibdir.

Hər bir əsgər, hər bir kursant və ya zabit bu cəmiyyətin bir parçasıdır. Onlar ailələrin, məktəblərin, universitetlərin yetişdirdiyi gənclərdir. Ona görə də ordudakı nizam-intizam, vətənpərvərlik və mənəviyyat birbaşa cəmiyyətin daxili keyfiyyətindən xəbər verir.

Ordu sadəcə qapalı bir hərbi düşərgə deyil. O, cəmiyyətin ən böyük sosiallaşma institutlarından biridir. Gənclər orduya müxtəlif xarakterlərlə, fərqli ailə mühitlərindən gəlirlər. Lakin hərbi xidmət müddətində onlar vahid məqsəd ətrafında birləşir, paylaşmağı, komanda ruhunu və dövlət məsuliyyətini öyrənirlər.

Digər tərəfdən, cəmiyyətin orduya baxışı da çox önəmlidir. Əgər bir ölkədə ana öz övladını hərbi xidmətə göz yaşları ilə deyil, qürurla, toy-bayramla yola salırsa, deməli, o cəmiyyətdə milli şüur ən yüksək səviyyədədir. Biz bunu 44 günlük Vətən müharibəsində və ondan sonrakı dövrdə aydın gördük. Xalq və ordunun bir yumruq kimi birləşməsi təkcə hərbi qələbə deyil, həm də sosioloji bir fenomendir.

Ordu cəmiyyətin sipəri, cəmiyyət isə ordunun can damarıdır. Bu iki güvə bir-birini bəslədikcə dövlət sarsılmaz olur. Hərbi hissələrdə keçirilən mədəni tədbirlər, kursantların intellektual inkişafı və valideynlərin hərbi mühitə inamı məhz bu birliyi möhkəmləndirən ən parlaq nümunələrdir.

Xidmətə yeni başlamış əsgərin ata-anasının hərbi hissəyə gəlməsi və onun yanında olduğunu hiss etməsi ən böyük psixoloji dəstəkdir. Bu adaptasiya dövrünü xeyli qısaldır. Valideynlərin övladlarının Hərbi And içməsini görməsi böyük qürur mənbəyidir. Hərbi hissələrdə keçirilən andiçmə mərasimləri də əsgərlərin həyatında mühüm və yaddaqalan hadisələrdən biridir. Bu xüsusi gündə valideynlərin və yaxınlarının iştirakı həm əsgərlər, həm də ordunun mənəvi-psixoloji mühiti üçün böyük əhəmiyyət kəsb edir. Əsgərin öz valideynini qarşısında görməsi, Vətənə sədaqət andı içərkən ailəsinin də buna şahidlik etməsi onda məsuliyyət hissini və xidmətə olan motivasiyasını qat-qat artırır. Andiçmə günü hərbi hissələrin qapıları valideynlərin üzünə açılır və onlar üçün xüsusi şərait yaradılır. Valideynlər onlar üçün ayrılmış xüsusi sahədə dayanaraq övladlarının nizamlı addımlarla meydana daxil olmasını, Dövlət Himnini oxumasını və andiçməsini izləyirlər. Ordu rəhbərliyi və ziyalılar valideynlər qarşısında çıxış edərək onları təbrik edir, övladlarının etibarlı əllərdə olduğunu vurğulayırlar.



Əsgər və kursant valideynlərinin hərbi mühitdəki rolu, onların övladlarına verdiyi mənəvi dəstək ordumuzun daxili gücünü artıran ən mühüm amillərdəndir.

Ordu ilə cəmiyyət arasında ən həssas və doğma bağ valideynlər vasitəsilə qurulur.

Biz hər birimiz ordunun bir əsgəri, hər bir əsgər isə bu cəmiyyətin övladıdır. Evdə anasından xeyir-dua almayan gənc Vətən naminə böyük rəşadət göstərə bilməz. Ordunun qapılarının cəmiyyətin üzünə açılması dövlətlə xalqın doğmalaşması deməkdir. Ailə və ordu bir-birini tamamlayan mənəvi tərbiyə ocaqlarıdır. Əsgər anasının hərbi hissəyə atdığı hər bir addım Ana Vətən sevgisini artırır. Kursant atasının övladının çiynindəki paqona baxarkən keçirdiyi fərəh hissi cəmiyyətin gələcək zabitinə olan inamın və sevginin təcəssümüdür. Ordunu xalqdan təcrid etmək olmaz, çünki ordu xalqın özüdür. Bu yanaşma müasir ordumuzda keçirilən "Açıq qapı" günlərinin və valideyn ziyarətlərinin sosioloji əhəmiyyətini tam olaraq ortaya qoyur.

Valideynlərin hərbi hissələri ziyarət etməsi həm əsgər, həm ailə, həm də dövlət üçün böyük əhəmiyyət kəsb edir. Evindən, öz mühitindən ayrılıb hərbi xidmətə gələn gənc əsgər üçün valideynin onu ziyarət etməsi, komandirinin onun ailəsi ilə doğma rəftarını görməsi daxili bir rahatlıq və özünəinam yaradır. Hərbi hissələrdə keçirilən mədəni tədbirlər isə bu böyük mexanizmi doğmalıq və güvənlə birləşdirir. Valideynlərin hərbi hissələrə gəlişi, əsgər yeməyindən dadması, komandanlıqla birbaşa ünsiyyətdə olması ordumuzun cəmiyyətlə qurduğu körpüdür. Andiçmə və buraxılış mərasimlərində ailələrin iştirakı hərbi mühitə bir ailə istiliyi gətirir. Valideynlərə əsgər yataqxanaları (kazarmalar), yeməkxana, tibb məntəqəsi və asudə vaxt otaqları nümayiş etdirilir. Onlar övladlarının hansı şəraitdə xidmət etdiyini öz gözləri ilə görürlər.

Şəffaflıq və ictimai nəzarət də çox vacibdir. Valideynin hərbi hissədə olması şəffaflığın və qarşılıqlı etimadın rəmzidir. Onlar hərbi hissələrin məişət şəraiti ilə tanış olaraq dövlətin əsgərə göstərdiyi qayğının şahidi olurlar. Cəmiyyətdəki şayiələrin qarşısını alır, orduya olan total etimadı möhkəmləndirirlər. Kursant və əsgərlərin ailələri hərbi mühiti yaxından tanıdıqca, öz ətraflarında, məhəllələrində və iş yerlərində ordunun nüfuzunu təbliğ edirlər. Bu, hərbi xidmətin cəmiyyətdə bir şərəf borcu kimi qəbul edilməsini sürətləndirir.

Kursant valideynləri isə tamamilə fərqli bir missiyanı yerinə yetirirlər. Onlar gələcəyin generallarını, polkovniklərini böyüdürlər. Bax, bu, cəmiyyətin hərbiyə verdiyi ən böyük sevgidir.

Hərbi məktəblərin kursantlarının və xidmətdə fərqlənən əsgərlərin təhsil müəssisələrinə səfərləri gənclər arasında böyük maraq və rəğbətlə qarşılanır. Bu görüşlərin həm orta məktəb şagirdləri, həm də tələbələr üçün fərqli və mühüm əhəmiyyəti var. Müasir məktəblilər üçün formalı, intizamlı və Vətən keşiyində duran bir əsgəri və ya kursantı qarşılarında görmək vizual bir dərsdir. Bu görüşlər "Çağırışaqədərki hərbi hazırlıq" fənninin praktiki davamı rolunu oynayır. Şagirdlər hərbi həyat, kazarmaları və silahların xüsusiyyətləri barədə məlumatları birinci mənbədən öyrənirlər. Kursantlar və mülki universitetlərin tələbələri eyni yaş qrupuna aid gənclərdir. Onların görüşləri təcrübə mübadiləsi xarakteri daşıyır. Tələbələr hərbi intizamın, kursantlar isə elmi-mədəni yeniliklərin sirlərinə bələd olurlar. Mülki gənclərlə hərbi gənclər arasında dostluq bağları qurulur. Bu görüşlərdən sonra yüzlərlə orta məktəb məzunu hərbi peşəni seçməyə qərar verir, hərbi liseylərə və ali hərbi məktəblərə sənəd verir.

Ordu və cəmiyyət münasibətlərinin ən fəal istiqamətlərindən biri də əsgər və kursantların orta məktəblərdə, universitetlərdə keçirdiyi görüşlər, həmçinin tanınmış yazıçı və şairlərlə olan mütəmadi təmaslarıdır. Bu görüşlər sadəcə rəsmi tədbirlər silsiləsi deyil; burada gəncliyin enerjisi, hərbi intizam sözün qüdrətilə birləşir.

Tarix boyu qələm və silah Vətənin müdafiəsində qoşa addımlayıb. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin, şair və yazıçılarının hərbi hissələrdə, kursant yataqxanalarında və ya mədəniyyət mərkəzlərində əsgərlərlə bir araya gəlməsi böyük bir ənənənin tərkib hissəsidir. Şairlərin vətənpərvərlik mövzusunda oxuduqları gur səsli şeirlər əsgərlərin daxili ruhunu coşdurur. Yazıçıların hərbi hissələrə öz kitablarını hədiyyə etməsi və imza günlərinin keçirilməsi orduda mütaliə mədəniyyətini artırır. Səngərdə və ya növbətçilikdən sonra kitab oxuyan əsgər daxilən daha güclü olur. Məktəblərdə keçirilən görüşlər ordunun cəmiyyətə açılan pəncərəsidirsə, yazıçı və şairlərlə qurulan təmaslar ordunun mənəvi qalxanıdır. Bu vəhdət sübut edir ki, Azərbaycan Ordusu sadəcə hərbi gücdən ibarət deyil; o, elmi, təhsili, ədəbiyyatı və öz xalqını qəlbində daşıyan bütöv bir mənəvi qüvvədir. Təhsil ocaqlarında əsgər salamı ilə başlayan günlər sabahın zəfərlərinin təməl daşlarıdır.



Güclü cəmiyyət güclü ordunu bəsləyir, güclü ordu isə o cəmiyyətin rifahını və təhlükəsizliyini təmin edir.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Qafqaz Müsəlmanları İdarəsi (QMİ) arasındakı əməkdaşlıq, həmçinin orduda dini bayramların, xüsusilə də Qurban bayramının qeyd olunması milli-mənəvi dəyərlərin qorunması baxımından böyük əhəmiyyət kəsb edir. Hərbi hissələrdə qurbanlıq heyvanlar kəsilir. Kəsilən qurbanların ətindən şəxsi heyət üçün dadlı bayram yeməkləri hazırlanır və əsgər yeməkxanalarında zəngin bayram süfrələri təşkil olunur.

Hərbi təhsil müəssisələrində mayın sonu və iyun ayı kursantlar üçün həm də məzuniyyət və buraxılış dövrüdür. Bu tədbirlərdə gənc zabitlər hərbi təhsil müəssisəsinin döyüş bayrağı ilə vidalaşır, rəsmi marşla tribunanın önündən keçir və dövlət rəhbərliyinin qarşısında Vətənə sadiq xidmət edəcəklərinə dair and içirlər. Bayram günlərində kursantların hərbi geyimdə, nizamlı dəstələrlə paytaxtın və digər şəhərlərin mərkəzi küçələrində, eləcə də fəxri xiyabanlarda keçirdiyi tədbirlər xalq tərəfindən həmişə böyük coşqu və qürurla qarşılanır. Hərbi paradlar bir dövlətin ordusunun gücünü, hərbi intizamını və texnoloji imkanlarını dünyaya nümayiş etdirdiyi ən möhtəşəm platformadır. Bu paradların ön sıralarında məhz hərbi məktəblərin kursantları addımlayırlar. Parada hazırlıq aylarla çəkən gərgin məşqlər tələb edir. Lakin o tribunanın önündən keçən bir neçə dəqiqə bütün çətinlikləri unutdurur.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən və tarixi Zəfərimizin rəmzi olan "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında hərbçilərimizin iştirakı da xüsusi mənəvi rəmzi məna daşıyır. Cıdır düzündə uzun fasilədən sonra ilk dəfə təşkil edilən festivalın açılışında fəxri qonaq qismində məhz Azərbaycan hərbçiləri, döyüşlərdə yaralananlar və şəhid ailələri iştirak etmişlər.

Hərbçi anası olmaq sözlə ifadə edilməyən fərqli bir duyğudur. Oğlu xidmətdə olan ananın gözündəki həm o təlaşı, həm də böyük qüruru görmək olur. Azərbaycan anası övladını canından çox sevir, amma söhbət Vətəndən gedəndə 'Vətən sağ olsun!' deməyi də bacarır.

**Sevda AŞIROVA**
**"Azərbaycan Ordusu"**

# 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü qeyd olundu







Səməd Vurğun adına Sağlamlıq və İstirahət Mərkəzində Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı və Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə 1İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə şəhid övladları üçün tədbir keçirildi. Tədbirdə Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Birliyinin sədrinin 1-ci müavini Cəmaləddin Quliyev və məlumat şöbəsinin müdiri Firəngiz Ağayeva, şəhid ailələri və qonaqlar iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə tədbir açıq elan olundu.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədr müavini Aygün Məmmədova tədbirin proqramını elan etdi. Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı qısa məlumat verdi. Ölkəmizdə uşaqlara hər zaman dövlət qayğısının göstərildiyi qeyd olundu. Aztəminatlı və şəhid övladları üçün təşkil olunan bu tədbir də onlara olan dövlət qayğısının bariz nümunəsidir.

Çıxış edən Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Kərim Rzayev əvvəlcə uşaqları əlamətdar gün münasibətilə təbrik etdi. Onlara xoşbəxt, firavan, sülh şəraitində sevinc dolu ömür arzuladı. Həmkarlar ittifaqı hər zaman olduğu kimi, bu il də aztəminatlı və şəhid ailələrinə diqqət göstərildiyini dedi. Tədbirə 35 şəhid ailəsinin qatıldığı qeyd olundu. Kərim Rzayev Səməd Vurğun adına Sağlamlıq və İstirahət Mərkəzində yaradılan yüksək şəraitə görə rəhbərliyə təşəkkür etdi.

Proqrama əsasən, uşaqlar əvvəlcə komandalara bölünərək açıq səma altında geniş idman meydançasında estafet yarışları keçirdilər. Müxtəlif idman qurğularında özlərini sınadılar. Daha sonra istirahət mərkəzinin geniş zalına gələrək animatorların onlar üçün hazırladıqları fiziki, zehni oyunlarda iştirak etdilər. Onlar əvvəlcədən hazırlanmış müxtəlif çeşidli uşaq yeməklərinin hazırlandığı masalara dəvət olundular, şən musiqi sədaları altında rəqs etdilər. İkinci Qarabağ müharibəsi əlilinin oğlu Əli Şərifzadənin "Ey Vətən" ifasını fidanlar coşqu ilə alqışladılar. Uşaqlar daha sonra kino zalında cizgi filminə tamaşa etdilər. İyun ayında ad günü olan 5 nəfər şəhid övladı xüsusi olaraq təbrik olundu. Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Birliyinin sədri Hikmət Nəbiyevin adından onlara təbriklər, diplomlar və hədiyyələr verildi.

Sonda Qarabağ ordenli şəhid Şəhriyar Quliyevin həyat yoldaşı Pərvin Quliyeva uşaqlara göstərilən yüksək diqqət və qayğıya görə Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqına, Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinə və əməyi keçən hər kəsə şəhid ailələri adından təşəkkür etdi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**





* * *

Uşaqlar cəmiyyətin ən qiymətli sərvəti, dövlətimizin və xalqımızın gələcəyidir. Onların sağlam, xoşbəxt və qayğısız böyüməsi hər bir cəmiyyətin əsas prioritetlərindən biridir. Azərbaycanda uşaqların hüquqlarının qorunması, onların sosial rifahının yaxşılaşdırılması və hərtərəfli inkişafı daim dövlət siyasətinin mühüm istiqamətlərindən biri olub. Xüsusilə şəhid və hərbi qulluqçuların övladlarına göstərilən diqqət və qayğı dövlətimizin sosial siyasətinin ayrılmaz tərkib hissəsidir. Müdafiə Nazirliyi tərəfindən də hərbi qulluqçuların ailə üzvlərinin, eləcə də şəhid övladlarının rifahının yüksəldilməsi, onların sağlamlığının qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirildi.

1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Xüsusi Təyinatlı Qüvvələrin komandanlığının təşkilatçılığı ilə keçirilən tədbir də məhz bu diqqət və qayğının növbəti təzahürü oldu. Keçirilən tədbir ölkəmizdə uşaqların, xüsusilə də Vətən uğrunda canından keçmiş qəhrəmanlarımızın övladlarının qayğı ilə əhatə olunmasının dövlətimizin və Müdafiə Nazirliyinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir. Uşaqların xoşbəxtliyi, sağlamlığı və firavan gələcəyi naminə həyata keçirilən bu cür tədbirlər cəmiyyətimizdə humanizm, vətənpərvərlik və sosial həmrəylik dəyərlərinin daha da möhkəmlənməsinə xidmət edir. Tədbirdə hərbi qulluqçuların və şəhid ailələrinin övladları iştirak etdilər.

Bayram tədbiri çərçivəsində uşaqların sağlamlığının qorunmasına xüsusi diqqət ayrıldı. Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının dəstəyi ilə tədbirə 59 həkim-mütəxəssis cəlb olundu. Hərbi hissənin tibb məntəqəsində 16 müxtəlif sahə üzrə 250-dən çox uşaq tibbi müayinədən keçirildi. Müayinələr zamanı onların sağlamlıq vəziyyəti qiymətləndirilib, valideynlərə müvafiq tibbi məsləhətlər verildi.

Tədbirdə çıxış edənlər qeyd etdilər ki, uşaqların sağlam və vətənpərvər ruhda böyüməsi gələcəyimizin etibarlı təminatıdır. Vurğulandı ki, Müdafiə Nazirliyi tərəfindən hərbi qulluqçuların ailələrinə və şəhid övladlarına göstərilən diqqət və qayğı bundan sonra da davam etdiriləcək, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçiriləcək.







Tədbirin rəsmi hissəsindən sonra uşaqlar üçün əyləncə proqramı təşkil olundu. Şən klounların iştirakı ilə keçirilən maraqlı oyunlar, müsabiqələr və interaktiv çıxışlar balacaların böyük sevincinə səbəb oldu. Uşaqların üzlərindəki təbəssüm, gözlərindəki sevinc tədbirə xüsusi rəng qatdı.

Daha sonra uşaqlar üçün bayram süfrəsi açıldı. Səmimi və xoş atmosferdə davam edən tədbirin sonunda bayram tortu kəsildi, uşaqlara müxtəlif hədiyyələr təqdim olundu.

Uşaqların sağlam gələcəyi naminə atılan hər addım ölkənin sabahına verilən ən böyük dəyərdir.



**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu: 15 İyun - müstəqillik tariximizin mühüm mərhələsi, Milli Qurtuluş Günüdür.**

**Suallar:**

1. Müstəqillik tariximizin mühüm mərhələsi.
2. 15 İyun - Milli Qurtuluş Günüdür.

### Müstəqillik tariximizin mühüm mərhələsi

XX əsrin 90-cı illərinin əvvəllərində ən böyük arzusunu - dövlət müstəqilliyinin bərpasını reallaşdırmaq üçün Tanrı xalqımıza şans verdi. Yetmiş il dünyanı lərzəyə salan bir imperiyanın tərkibindən çıxaraq öz müstəqilliyinə nail olmaq isə elə də asan başa gəlmədi. Ölkəmizi müstəqilliyə aparan yol 20 Yanvar faciəsindən keçdi. SSRİ rəhbərliyi xalqın azadlıq arzusunu boğmaq üçün, hətta ordunun gücündən istifadə edərək qan tökməkdən belə çəkinməsə də, öz istəyinə çata bilmədi - Azərbaycan dövlət müstəqilliyini bərpa etdi.

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi bərpa edilən Azərbaycan Respublikasına qarşı bir tərəfdən Ermənistanın əsassız ərazi iddiaları ilə bir neçə il əvvəl başladığı hərbi təcavüz davam edir, bu respublikada tarixi torpaqlarında yaşayan azərbaycanlılar qovularaq qaçqına çevrilir, təcavüzün gedişində ərazilərimiz bir-birinin ardınca işğal edilir, tarixi mənsubiyyətini itirmək üçün yaşayış məntəqələri yandırılır, əhali məcburi köçkün edilir, digər tərəfdən isə hakimiyyət uğrunda müxtəlif qruplaşmalar arasında amansız mübarizə gedirdi.

1992-ci ilin mayında Azərbaycan Xalq Cəbhəsi silahlı yolla hakimiyyəti devirdi. Ölkədə AXC-Müsavat iqtidarı quruldu. Lakin yeni hakimiyyət Azərbaycan Respublikasının problemlərini nəinki həll edə bilmədi, əksinə, onları daha da dərinləşdirdi. İdarəçilikdə səriştəsizlik, problemləri yanlış qoyma və həllinə primitiv, məhdud yanaşma, idarəçilik bacarığının olmaması, hakimiyyətin qanunverici, icraedici və məhkəmə qanadları arasında qarşıdurma ölkəni böhrana gətirib çıxardı. Dövlət müstəqilliyinin bərpasından ötən müddət ərzində bir neçə dəfə hökumət dəyişmişdi. Yürütdüyü siyasətlə xalqdan ayrı düşmüş hakimiyyət ona bəslənən ümidləri doğrulda bilmirdi. Cəbhədəki uğursuzluqlar bir-birinin ardınca gəlirdi. Hakimiyyət mövcud problemləri həll etmək iqtidarında deyildi. Ölkənin şimalında və cənubunda xaricdən qızışdırılan separatçılıq hərəkətləri Azərbaycan Respublikasını didib-parçalayır, milləti və ölkəni dağıdan, dövlətin varlığını təhdid edən qondarma qurumlar yaradılırdı. Tarixən tək millət olmuş Azərbaycan dövləti məhvə doğru gedirdi. Bu azmış kimi, 1993-cü il iyunun 4-də Gəncədə Surət Hüseynovun rəhbərliyi altında hərbi qiyam baş verdi. Hərbçilər Bakıya doğru yürüş etdilər. Azərbaycan öz tarixində o zamanadək görünməmiş bir faciənin - qardaşın birbirinin qanının tökülməsi, vətəndaş müharibəsi ərəfəsində idi. Bəlkə də Azərbaycan tarixində millət və cəmiyyət heç bir zaman bu qədər qütbləşməmişdi.

Beynəlxalq aləmdə Azərbaycan dövlətinin səsi eşidilmirdi. Təşkilati, dövlət idarəçilik bacarığına və qabiliyyətinə malik olmayan, xalqın dəstəyini itirmiş hakimiyyət beynəlxalq aləmdə ölkəni təcridçiliyə gətirmişdi. Diplomatiya dostlar əvəzinə, daha çox düşmənlər qazandırırdı. Qonşularla münasibətlər gərgin idi. Ölkənin maraqları etibarlı qoruna bilmirdi.

Azərbaycan Respublikası dəhşətli bir vəziyyətə düşmüşdü. Bu, Azərbaycanın iqtisadi, siyasi, hərbi, mədəni, humanitar və psixoloji həyatını tamamilə bürümüş ağır ümumi böhran idi. Azərbaycan vətəndaşının yaranmış şəraitdən çıxmağa, sabaha ümidi yox idi! Müstəqil dövlət sanki kağız üzərində, bəyanat xarakterli idi. Bərpa edilmiş dövləti təmsil edən hakimiyyət real olaraq hər hansı bir məsələni həll etmək gücündə deyildi. Xalq nicat yolu arayırdı. Belə şəraitdə vəzifədə olanlar bir-birinin ardınca istefa verərək məsuliyyətdən yaxa qurtarmaq yolunu tutdular. Bəziləri vəzifələrini "dondurdular", bəziləri isə qaçıb gizləndilər. Xalq bir suala cavab axtarırdı: Nə etməli? Ölkəni ağır şəraitdən kim və necə çıxara bilər? Belə bir tarixi şəxsiyyət, lider varmı?

O zaman hakimiyyətdə olanların səriştəsizliyi, bacarıqsızlığı nəticəsində 1993-cü ilin iyunun əvvəllərində respublikada yaranmış gərgin ictimai-siyasi hadisələr kulminasiya nöqtəsinə çatdı, silahlı qarşıdurmalar fonunda hakimiyyət böhranı, siyasi böhran bütün ölkəni ənginə aldı. Azərbaycan öz dövlət müstəqilliyini bir əsrdə ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə qaldı. Çoxlu mürəkkəb suallar qarşısında qalan və xilaskar axtarışında olan Azərbaycan xalqı, uzun illər boyu yaxşı tanıdığı, dövlət idarəçilik bacarığına və liderlik keyfiyyətinə inandığı, həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan Dahi Lider Heydər Əliyevə üz tutdu. Xalqın inamına görə, yalnız Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətini məhv olmaqdan, ölkəni parçalanmaqdan, dağılmaqdan xilas edə, xalqı mənəvi-psixoloji böhrandan çıxara, Ermənistanın davam edən işğalını dayandıra, ölkəni fəlakətə salmış xarici siyasət fəaliyyətini yeni əsaslar üzərində qura bilərdi. Dahi şəxsiyyət xalqın çağırışlarına cavab verdi və 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıtmaqla respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, yox olmaqdan xilas etdi. Bu hadisə Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi əbədi həkk olundu. Ulu Öndərin hakimiyyətə gəlməsi ilə müstəqil Azərbaycan dövlətinin və xalqının tarixində yeni bir dövr başladı. Bu, dövlətin və dövlətçiliyin xilası və möhkəm əsaslarda qurulması dövrü idi.

### 15 İyun - Milli Qurtuluş Günüdür

Xalqın təkidi ilə Ümummilli Liderimizin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi inkişaf və siyasi sabitlik müstəqilliyimizin möhkəmləndirilməsində, sivil dünyaya qovuşmasında, beynəlxalq aləmə inteqrasiyasında və müasir cəmiyyətin qurulmasında həlledici rol oynadı. Bakıda hələ heç bir vəzifə tutmayan, millətin inam yeri olaraq milli liderlik missiyası daşıyan Ulu Öndər Heydər Əliyev şəraitlə yerində tanış olmaq məqsədilə təcili olaraq qiyamın baş verdiyi Gəncə şəhərinə getdi. Ağır bir şəraitdə iyunun 15-də Azərbaycan parlamentinin sədri seçildi. Bu qayıdış sadəcə parlament sədri vəzifəsini tutmaq demək deyildi. Bu dönüş Azərbaycan xalqı və dövlətinin xilası, gələcək inkişafını müəyyənləşdirmək üçün olan əzablarla dolu ağır bir dönüş idi!

Hakimiyyətə yenidən qayıdan Ulu Öndər zəif və dağılmış ordu ilə müharibə aparan ermənilərlə yanaşı, silahlı qüvvələrin bir-birinə qarşı döyüşdüyü dağılmış Azərbaycan dövlətini yenidən ayağa qaldırmaq üçün hərəkətə keçdi. Dahi Lider bu ağır vəzifələri birbir yox, eyni vaxtda həyata keçirməklə Azərbaycan dövlətini xilas edə bildi: dövlətin əlində olması gərəkərkən silahları ələ keçirmiş ölkədə kriminogen şərait yaradan ayrı-ayrı silahlı birləşmələri tərk-silah etdirərək qanun qarşısına çıxartdı; xalqla hakimiyyət arasında uçurumu, inamsızlığı aradan qaldırdı; insanların sakit və təhlükəsiz yaşayışını təmin etdi; ağır sosial-iqtisadi şəraitdə yaşayan xalqı inkişafa aparmaq və xalqının mənəvi-psixoloji ruhunu yüksəldərək dövlətin gücünü yaratmaq üçün addımlar atdı; köhnə sosializm sisteminin qalıqlarından imtina edərək uğurlu islahatlar apardı, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəldilməsi sahəsində böyük işlər gördü; neft müqavilələri imzalayaraq kiçik Azərbaycanı nəhəng ölkələrin hesablaşdığı ölkəyə çevirdi; ordunu nizama saldı; Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalmış bir çox kəndlərimizi düşməndən təmizlədi və dövlətin gələcəyini qurmaq üçün mövcud vəziyyəti nəzərə alaraq, Qarabağda atəşkəs sazişinə razılıq verərək Ermənistanı dalan ölkəyə çevirəcək strategiyanı hazırladı.

Hakimiyyətə gəlməsi ilə Azərbaycan dövlətini dağılmaqdan, vətəndaş müharibəsindən xilas edən Ulu Öndər Heydər Əliyev indiki Azərbaycan dövlətinin qurucusu və memarı oldu. O, Azərbaycan Respublikasının eksperimentlər ölkəsinə çevrilməsi praktikasına son qoydu. Ulu Öndərin müdrik daxili və xarici siyasəti nəticəsində hüquqi-demokratik dövlət quruculuğu, Milli Ordunun formalaşdırılması istiqamətlərində əsaslı addımlar atıldı. Azərbaycan dövləti 1994-cü ilin mayın əvvəllərində NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qatıldı. Həmin ayda Ermənistan ilə Azərbaycan arasında atəşkəs elan edildi.

1994-cü il sentyabrın 20-də dünyanın bir sıra böyük ölkələrini təmsil edən transmilli şirkətlərlə "Əsrin müqaviləsi" imzalandı. Ulu Öndər Heydər Əliyevin qətiyyəti özünü "Əsrin müqaviləsi" imzalandıqdan sonra baş verən dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında aydın şəkildə göstərdi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında baş verən dövlət çevrilişi cəhdləri məhz Ulu Öndərin yenilməz qətiyyəti, siyasi bacarığı ilə iflasa uğradıldı. Bununla da silahlı yolla hakimiyyətə gəlmək kimi acı təcrübəyə son qoyuldu. Dövlət çevrilişlərinin qarşısı alındıqdan sonra Azərbaycan dövlətinə investisiya axını başladı. Müxtəlif neft boru kəmərləri işə salındı və ya təməli atıldı. Azərbaycanın xarici ölkələrdən enerji asılılığına son verildi. Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri layihələrinin əsası qoyuldu. Bu boru kəmərləri layihələri təkcə iqtisadi deyil, eyni zamanda, Azərbaycan dövlətinin beynəlxalq mövqelərini möhkəmləndirən, müstəqilliyi gücləndirən, xalqın maddi rifah halının və mənəvi-psixoloji ruhunun yüksəlməsinə kömək edən layihələr oldu.

Ulu Öndər Heydər Əliyevin səyləri ilə Böyük İpək yolunun bərpası həyata keçirildi. Şərqlə Qərbi birləşdirən, təkcə iqtisadi-ticarət deyil, eyni zamanda, böyük siyasi və strateji əhəmiyyət daşıyan TRASEKA proqramı reallaşdırıldı. Azərbaycan dövləti dünya ölkələrinin ticarətini əlaqələndirən qovşaq bir ölkə oldu. Azərbaycanı dünyanın mərkəzlərindən birinə çevirəcək Bakı-Tbilisi-Qars dəmir yolunun layihəsi ideyası və onun həyata keçirilməsi üçün hazırlıqlara başlanılması da müstəsna tarixi əhəmiyyət daşıyan hadisə idi. Azərbaycanın beynəlxalq mövqeləri möhkəmləndi. Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycanın əhəmiyyəti artdı, Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başladı.

1995-ci il noyabrın 12-də ümumi seçkilər yolu ilə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi və müstəqil Azərbaycan Respublikası parlamentinə seçkilər keçirildi. Dünyanın ən demokratik konstitusiyalarından biri olan ana qanunumuzda insan hüquq və azadlıqları ilə bağlı müddəalarla yanaşı, Azərbaycan xalqı və dövlətinin gələcəyi ilə bağlı olan təməl məsələlər təsbit edildi. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üstündə gedən mübahisələr dövründə ədalətə və artıq mövcud olan praktikaya dayanaraq Xəzərin Azərbaycan sektorunun ölkə ərazisi olmasının təsbit edilməsi və ölkə ərazisinin yalnız ümumxalq referendumu yolu ilə dəyişdirilməsinin mümkün olması Ermənistanın təcavüzünün davam etdiyi bir şəraitdə tarixi əhəmiyyət daşıyan bir addım idi. Bununla müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyasının memarı olan Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan Respublikası dövlətinin gələcəyini müəyyənləşdirən bir dövlət xadimi oldu.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi və yürütdüyü siyasət nəticəsində Azərbaycanın müstəqillik tarixində ilk dəfə sabitsizlikdən, anarxiyadan sabitliyə, qarışıqlıqdan demokratiyaya, ağır həyat şəraitindən firavan bir yaşayışa keçid baş verdi. Azərbaycan xalqının sabaha və özünə inamı artdı. Ən başlıcası, Azərbaycanda təməlləri möhkəm olan güclü dövlətçilik ənənəsinin, dərin dövlətin əsası qoyuldu. Ulu Öndər milli ideyaları milli ideologiya olaraq sistemləşdirdi və formalaşdırdı. Bütün ölkə vətəndaşlarını birləşdirən azərbaycançılıq ideologiyasının əsaslarını işləyib hazırlayaraq həyata keçirdi, etnik millətçiliyə dayanan yanaşmadan imtina edərək, bütün vətəndaşların şəxsiyyət vərəqəsində "Azərbaycan Respublikasının vətəndaşı" yazmağın təşəbbüskarı və onu reallaşdıran dövlət xadimi olaraq, siyasi milliyyətçiliyə, dövlət-millət anlayışına keçidin banisi oldu. Bu, Azərbaycan tarixində görünməmiş bir fəaliyyət və bir ilk idi.

Azərbaycan dövlətinin hərb sistemi quruldu. Ölkəni xarici təcavüzdən qorumağa qadir olan güclü ordu formalaşdırıldı. Atəşkəs dövründə Azərbaycan Ordusu döyüş hazırlığını artırmaqla yanaşı, müasir silah və sursatla da təchiz olunurdu. Şübhəsiz ki, Ulu Öndərin apardığı müdrik siyasət nəticəsində müstəqilliyimiz qorunub, dövlətlə xalqın birliyi təmin edilib. Bu gün Azərbaycan qalib ölkə olaraq dünyadakı nüfuzunu daha da artırıbsa, 44 günlük Vətən müharibəsində 30 ilə yaxın Ermənistanın işğalına məruz qalan torpaqlarını düşmən tapdağından azad edibsə, bu uğurların təməlində Ulu Öndər Heydər Əliyev məktəbinin, uzaqgörənliyinin əsasları dayanmaqdadır. Bu əsaslar Azərbaycanın ötən onilliklərdə güclənməsinə, iqtisadi, diplomatik, hərbi sahədə irəliləməsinə şərait yaratdı və əlbəttə ki, Ulu Öndərin siyasət mücəssəməsi məhz Zəfər tariximizə hesablanmış uzun, çətin bir yolun keçidi idi.

(Ardı 8-ci səhifədə)

# Qəhrəmanlıq salnaməmizi yaddaşlara köçürənlərin bir qərinəlik tarixi

(Əvvəli 1-ci səhifədə)

Yaradılmasının 33-cü ildönümünü qeyd edən Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının Multimedia Mərkəzi fəaliyyət göstərdiyi illər ərzində çətin və şərəfli yol keçərək hərbi jurnalistika sahəsində özünəməxsus yer tutub. Birinci Qarabağ müharibəsindən başlayaraq 44 günlük Vətən müharibəsinə, eləcə də ondan sonrakı digər uğurlu əməliyyatlara qədər uzanan dövrdə mərkəzin əməkdaşları Azərbaycanın hərb tarixinin ən mühüm məqamlarını lentə alıb, döyüş xronikasının yaradılmasında mühüm missiya yerinə yetirib, qəhrəmanlıq salnaməmizin formalaşdırılmasına böyük töhfə veriblər. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlər zamanı Multimedia Mərkəzi tərəfindən çəkilən görüntülər bu gün də tarixi sənəd kimi böyük əhəmiyyət daşıyır.

Əsası Azərbaycan Respublikasının müdafiə nazirinin 1993-cü il 2 iyun tarixli müvafiq əmri ilə qoyulan mərkəz "Sənədli Filmlər Kino-Telestudiyası" adı ilə fəaliyyətə başlayaraq böyük inkişaf yolu keçib. Yarandığı ilk gündən etibarən mərkəzin əməkdaşları ən çətin və təhlükəli şəraitdə fəaliyyət göstəriblər. Döyüşlərin getdiyi ərazilərdən operativ çəkilişlərin hazırlanması, hərbi əməliyyatların gedişinin sənədləşdirilməsi onların əsas fəaliyyət istiqamətlərindən biri olub. Müstəqilliyimizin ilk illərində həyata keçirilən ordu quruculuğu prosesinin geniş işıqlandırılmasında da Multimedia Mərkəzinin xüsusi xidmətləri var. Hərbi hissələrin fəaliyyəti, döyüş hazırlığı, şəxsi heyətin xidməti, eləcə də hərbi sahədə həyata keçirilən yeniliklər ictimaiyyətə bu yaradıcı kollektiv vasitəsilə çatdırılıb.



Azərbaycanın şanlı hərb tarixini əks etdirən çoxsaylı sənədli filmlərin ərsəyə gəlməsində, Birinci Qarabağ müharibəsinin qəhrəmanlarına həsr olunan ekran əsərlərinin hazırlanmasında mərkəzin yaradıcı heyətinin böyük əməyi olub. Bununla yanaşı, hərbi tədris prosesinin daha səmərəli təşkili məqsədilə müxtəlif tədris filmləri, əyani vəsaitlər və mətodiki videomateriallar hazırlanıb. Bu məhsullar şəxsi heyətin peşəkarlığının artırılmasına və hərbi biliklərinin təkmilləşdirilməsinə mühüm töhfə verib.

Mərkəzin keçdiyi yola nəzər saldıqda görürük ki, ordumuzun gündəlik həyatı, şəxsi heyətin xidmət fəaliyyəti, əsgər və zabitlərin göstərdiyi fədakarlıq nümunələri məhz bu kollektivin hazırladığı materiallar vasitəsilə ictimaiyyətə çatdırılıb. Hərbi qulluqçuların uğurları, qazandıqları nailiyyətlər və göstərdikləri qəhrəmanlıqlar geniş auditoriyaya təqdim edilərək gənclərdə vətənpərvərlik hissinin gücləndirilməsinə xidmət edib.

Bu gün də Multimedia Mərkəzi öz ənənələrinə sadiq qalaraq xidməti fəaliyyətini uğurla davam etdirir. Şəxsi heyət üzərinə düşən vəzifələri məsuliyyət hissi ilə yerinə yetirir. Azərbaycan Ordusunda həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində mərkəzin maddi-texniki bazası daha da gücləndirilib, müasir texnologiyalar və yeni nəsil avadanlıqlarla təchiz olunub. Bu isə fəaliyyətin operativliyini və keyfiyyətini daha da artırıb.

Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıq sahəsində əldə edilən uğurların təbliğində, ordunun fəaliyyətinin obyektiv işıqlandırılmasında və xüsusilə Vətən müharibəsində qazanılan tarixi Qələbənin dünyaya çatdırılmasında mərkəzin kollektivinin böyük xidmətləri olub. Torpaqlarımızın azad olunması uğrunda gedən döyüş əməliyyatları zamanı mərkəzin əməkdaşları ön cəbhədə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirdilər. Yaradıcı heyət tərəfindən 44 gün ərzində hazırlanan foto və videomateriallarla Azərbaycan Ordusunun uğurlarını operativ şəkildə ictimaiyyətə çatdırdı. Vətən müharibəsində qazanılan Zəfərdən sonra Multimedia Mərkəzinin bir qrup əməkdaşı Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Hərbi xidmətlərə görə" və digər medallara, eləcə də müdafiə nazirinin müvafiq əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalına layiq görülüb.

Bu gün işğaldan azad edilmiş ərazilərdən hazırlanan reportajlar, sənədli filmlər və xüsusi layihələr vasitəsilə xalqımız uzun illər həsrətində olduğu doğma torpaqları yenidən görür. Aparılan bərpa və quruculuq işləri, doğma yurdlarına qayıdan insanların sevinc dolu anları da mərkəzin hazırladığı materiallarda öz əksini tapır. Bu fəaliyyət həm tarixi yaddaşın qorunmasına, həm də Azərbaycanın postmüharibə dövründə qazandığı nailiyyətlərin təbliğinə xidmət edir.

Əminliklə deyə bilərik ki, Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının Multimedia Mərkəzinin əməkdaşları tərəfindən lentə alınan hər bir kadr, çəkilən hər bir fotoşəkil və hazırlanan hər bir film xalqımızın qəhrəmanlıq tarixinin gələcək nəsillərə çatdırılmasına xidmət edən qiymətli irsdir. Azərbaycanın hərb tarixinin yazılmasında, ordumuzun gücünün və qüdrətinin təbliğində mərkəzin fəaliyyəti bundan sonra da mühüm rol oynamaqda davam edəcək.

Yaradıcı heyətin əməkdaşlarını 33-cü ildönümü münasibətilə təbrik edir, onlara xidməti fəaliyyətlərində uğurlar arzulayırıq.

**"Azərbaycan Ordusu"**

# Uşaqların xoşbəxtliyi cəmiyyətin xoşbəxtliyidir

(Əvvəli 4-cü səhifədə)

Bu sualın cavabını ən ali şəkildə canını Vətənə sipər edən qəhrəmanlarımız öz ömürləri ilə verdilər. Onlar öz canları bahasına övladlarına elə bir ad, elə bir şərəfli miras qoydular ki, bu irs əsrlər boyu solmayacaq. Çünki uşaq gördüyünü yaşayır, eşitdiyini deyil. Bir valideynin övladına verə biləcəyi ən böyük dərs onun şəxsi nümunəsidir. Uşaq mühitə göz açanda ilk olaraq qarşısında bir güzgü görür - ata və anasını. Onun dilindən qopan "böyüyəndə atama oxşayacam" kəlməsi, əslində valideynin çiyinlərinə qoyulan ən ağır məsuliyyətdir.

Ailə daxilində valideynin mütləq riayət etməli olduğu ən ümdə prinsip dürüstlükdür. Valideyn heç zaman uşağa yalan danışmamalı, özünün əməl etmədiyi bir işi övladından tələb etməməlidir. Hətta uşağa hər hansı bir mükafat vəd edərkən belə, sözünə sadiq qalmaq mütləqdir. Əks halda, uşaq ailədə yalan görərsə, həm valideyninə olan etimadı sarsılar, həm də onun özündə yalançılıq xasiyyəti yaranar.

Bu gün o qədim dərslər, reallığın yeni bir sınağı ilə qarşı-qarşıyadır. Artıq uşaqlar bizi təkcə evdə, otaqda izləmirlər; onlar rəqəmsal dünyanın soyuq ekranlarından da bizim həyatımızı seyr edirlər. Əlində telefonla saatlarla virtual dünyada azan, amma övladına kitab oxumağı əmr edən bir valideynin nəsihəti uşağın zehnində sadəcə əsassız səs-küyə çevrilir. İndi nümunə olmaq təkcə real rəftarda deyil, həm də texnoloji dalğaların içində dürüst və faydalı qala bilmək bacarığıdır.

Uşaq qəlbi toxunulmamış təmiz bir torpaq kimidir. O torpağa nəyi qıysanız, gələcəkdə onu da biçəcəksiniz. Ailə bir fəzilət məktəbi, valideyn isə bu məktəbin ilk və ən təsirli müəllimidir. Onlar uşaqların yalnız fiziki ehtiyaclarını qarşılayan bir baxıcı deyil, ruhunun memarı olmalıdırlar. Ata və ana hər şeydən əvvəl uşaqların sağlam düşüncəli, milli-mənəvi və əxlaqi dəyərlərə hörmətlə yanaşan, ailəsinə və millətinə layiq bir gənc kimi yetişmələri üçün birgə səy göstərməlidirlər. Biz qanun qarşısında, cəmiyyət qarşısında və ən əsası Uca Yaradanın hüzurunda bu təmiz əmanətlərin gələcəyinə görə cavabdehik.

Gələcək bizə uşaqların gözü ilə baxacaq. Bu gün atdığımız hər addım, dediyimiz hər söz o gözlərdə ya bir işıq, ya da bir kölgə buraxacaq. Ölkəmizin sabahı bu gün fədakarlıqla, vətənpərvərlik ruhunda böyütdüyümüz o körpə fidanların, xüsusən də şəhidlərimizin bizə qoyub getdiyi müqəddəs əmanətlərin çiyinlərində yüksələcək.

Ən əziz və qiymətli əmanətlərimiz - şəhid və müharibədə sağlamlıqlarını itirənlərin övladlarıdır. Sizlər təkcə valideynlərinizin deyil, bütün Azərbaycan xalqının qürur mənbəyisiniz. Sizin atalarınız bu torpağın bütövlüyü, xalqın başıuca olması üçün canlarını fəda etdilər. Bu gün sizin hər birinizin üzündəki təbəssüm, əldə etdiyiniz hər bir uğur şəhidlərimizin ruhunu şad edir, onların Vətən sevgisini gələcəyə daşıyır.

1 iyun sadəcə təqvimin bir gününü rəngləmək üçün deyil, ömrümüzü uşaqların saf dünyasına bənzətmək, şəhidlərimizin əmanətlərinə sahib çıxmaq üçün bir fürsətdir. Ölkəmizdə yaşayan bütün uşaqları Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə ürəkdən təbrik edir, onlara səadət, uzun ömür və xoşbəxt gələcək arzulayırıq.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(Əvvəli 7-ci səhifədə)

"Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur" deyən Ulu Öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıdışından sonra əsas hədəfi torpaqlarımızı azad edə biləcək gücdə dövlətin yaradılması oldu. Şuşanın azad olunduğu xəbərini xalqa çatdıran Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev bildirmişdir ki, "Xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim".

Bu gün Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin məğlubiyyəti dəyişdirəcək strategiyası, bu strategiyanı uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Zəfərə aparan siyasətinin tarixi bəhrəsidir. Bu gün torpaqlarımız azad edildiyi üçün Ulu Öndər Heydər Əliyevin ruhu şaddır, çünki onun ən böyük amalı torpaqları işğaldan azad edilmiş güclü Azərbaycan dövləti idi və Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev buna nail oldu. Ulu Öndər Heydər Əliyev siyasəti, strategiyası, dövlətçilik fəlsəfəsi dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qarşısında yeni üfüqlər, hədəflər açır. Biz azərbaycançılıq məfkurəsini rəhbər tutaraq bu hədəflərə doğru inamla irəliləyirik.

Dünyada elə bir xalq tapmaq olmaz ki, milli tarixinin ən mürəkkəb mərhələsində müstəsna rol oynamış, dövlətçilik ənənələrini formalaşdırmış milli lideri olmasın. Çünki liderlərin mənalı və zəngin həyat səhifələrini vərəqləyərkən, addımlarının təhlilini apararkən onların mənsub olduğu xalqların da dövlətçilik ənənələri, tarixi, inkişaf səviyyəsi barədə aydın təsəvvür yaranır. Bu dahi şəxsiyyətlər yüksək mənəvi aləmləri ilə, ali bəşəri və milli ideallara, ümummilli mənafelərə ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar. Bu mənada xoşbəxt xalqıq ki, bizim də əbədiyyət abidəmiz var - Ulu Öndər Heydər Əliyev!

**İdeoloji Təminat İdarəsi**

Gizir Mehrəliyev Səyyad Bahadur oğluna verilmiş SQ № 0025011 nömrəli və gizir Hüseynov Elgiz Namizəd oğluna verilmiş SQ № 0023069 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Ağaverdiyev Ağaverdi Əli oğluna verilmiş AD № 0040738 nömrəli və Əliyev Renat Ərzuman oğluna verilmiş AD № 0026839 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Mehrəliyev Tərlan Elşən oğluna verilmiş MV № 138906 nömrəli, Hümbətəliyev Sahib İmamverdi oğluna verilmiş MV № 007822 nömrəli və Yusifli Murad Araz oğluna verilmiş MV № 159102 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Redaktor
mayor
Ceyhun CƏFƏRLİ

Telefon
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
Bəxtiyar ƏLİYEV

Lisenziya № 361
Sifariş № 550
Nüsxə 3653